# ÜMİDİN ADI ƏLƏKBƏR



Ələkbər Əlövsət oğlu Musayev 1999-cu il iyunun 16-da Cəlilabad rayonunun Mollalı kəndində anadan olub. Atası Əlövsət Musayev Birinci Qarabağ müharibəsi iştirakçısı olmuşdur. Ələkbər 2006-2017-ci illərdə şəhid Aqşin Mehdiyev adına Cəlilabad rayon Dövlətəlibəyli kənd orta məktəbində orta təhsil almış, orta təhsilini başa vurduqdan sonra 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Goranboy rayonu ərazisində yerləşən «N» saylı hərbi hissəsində xidmət etmiş, xidməti başa vurduqdan sonra öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirmişdir.

Ermənistanın işğalı altında olan ərazilərin işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün 2020-ci ilin sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsi zamanı Ələkbər döyüş yoldaşları ilə birlikdə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla mübarizə aparmış, həmin istiqamətdə strateji yüksəkliklərin düşməndən azad edilməsində mərdliklə savaşmış, sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur.

Uzun müddət ərzində Ələkbər Musayevin nəşini tapmaq mümkün olmadığından Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşmüş hərbi qulluqçu hesab olunmuş, 2021-ci il aprelin 27-də onun nəşi tapılmış və Cəlilabad rayonunun Mollalı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ələkbər Əlövsət oğlu Musayev ölümündən sonra «Vətən uğrunda», «Suqovuşanın azad olunmasına görə» medalları və III dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir. Şəhidimizin nurlu xatirəsinə həsr olunmuş eyni adlı şeiri oxucuların diqqətinə çatdırmaqla bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm və şəhidimizin əziz xatirəsinə həsr etdiyim şeirimi - "ÜMİDİN ADI ƏLƏKBƏR" şeirimi diqqətinizə çatdırıram.

Səndə gülüş izi vardı,
Bizi nikbin saxlayardı,
Ruhumuza ruh qatardı,
Hardadır o iz, Ələkbər?

Demə ki, nikbin deyilik,
Şəhadətindir təskinlik,
Şəhidlərlə Sən cənnətlik,
Cənnətdəsiniz, Ələkbər.

Döyüşçü, cəsur atana,
Təskinlik vermək istədin.
Düşməndən qisasın alıb,
Onu canınla dəyişdin.

Şəhid oldun, çox gözlədik,
Ki, nəşini dəfn edərik,
Axtarmışdıq ələk-vələk,
Bizə oyun qurdu fələk.

Aylar gəldi üstümüzə,
Ümid gəlməliydi bizə.
Yer üstündə söz vermişdik,
Yer altda hər birinizə.

Aprel ayı, son vaxtları,
Bizə gəldi şəkillərin.
Üzün gülür kameraya,
Mənə dolu baxış dərin.

O şəklinlə verdin ümid,
Tapıldı Ələkbər – Şəhid!
Gəlişinə qurban kəsdi,
Atan tapdı təskinliyi.

Nikbin olduq, dayandıq dik,
Düşmənləri güldürmədik,
Səni qəlblərdə yaşatdıq,
Əbədiyaşar eylədik.

Ey Ələkbər, sona qədər,
Sizləri yad edəcəyik.
Yurdu qoruyur ərənlər,
Ruhunu şad edəcəyik.

Beşiyi soyuq səngərdə,
Xidmət edər hər bir əsgər.
Vətən keşiyində durub,
Səngərdə ümid dirçəldər.

Ümidlər artar, əsgərdə,
Ümidlə olar cəngavər.
Düşmənini salıb dərdə,
Nizəylə bağrını dələr.

Ümidin vardı hər zaman,
Bu günə həm gələcəyə,
Vətənin qəhrəman oğlu,
İnanırdın qələbəyə.

Rəhmət Sənə, ey Ələkbər,
Verdin Ana Yurda dəyər,
Qisas alan cəsur əsgər,
Qazandın ruhunla Zəfər.

2 gündə saysız hünər,
Göstərib oldun müzəffər.
Bəxş etdin çoxlu ümidlər,
Ümidin adı – Ələkbər...

***22.08.2021.***



***Səhifəni hazırladı: MAA İqtisadiyyat və Hüquq fakültəsinin hüquqşünaslıq ixtisasının tələbəsi, AJB və AYB üzvü Sevindik NƏSİBOĞLU.***

Kredo .- 2026.- 6 mart (№09).- S.12.